**COP29-a hazırlıqla bağlı FHN tərəfindən görülən işlərin böyük hissəsi yekunlaşıb**

Noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı Fövqəladə Hallar Nazirliyi (FHN) üzərinə düşən vəzifələrin icrasını davam etdirir.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq FHN-in mətbuat xidmətindən bildirilib. Qeyd edilib ki, bu məqsədlə cari ilin yanvar ayında FHN-də tərkibinə nazirliyin rəhbər vəzifəli şəxslərinin daxil olduğu Qərargah və onun tərkibində müvafiq sahələr üzrə peşəkar mütəxəssislərdən ibarət işçi qruplar yaradılıb, Tədbirlər Planı hazırlanaraq təsdiq edilib.

“Təsdiq olunan Tədbirlər Planı üzrə qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə icrası üçün nazirliyin bütün qüvvələri ilk gündən səfərbər olunub. Bu çərçivədə, FHN-in müvafiq qurumları tərəfindən əhalinin, o cümlədən qonaqların təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi üçün səlahiyyətləri çərçivəsində obyektlərdə yanğın, texniki, tikinti və radiasiya təhlükəsizliyi sahələri üzrə müayinə və monitorinqlər həyata keçirilir, maarifləndirmə, mümkün fövqəladə hallara çevik reaksiya verilməsi, habelə Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması və digər istiqamətlərdə zəruri tədbirlər görülür.

COP29-a hazırlıqla bağlı fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə mütəmadi olaraq müşavirələr keçirilir, görülmüş işlərə dair Qərargah üzvlərinin hesabatları təqdim olunaraq geniş müzakirəsi aparılır, aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair zəruri tapşırıqlar verilir, icrası nəzarətə götürülür”, - deyə nazirlikdən bildirilib.

Əlavə olunub ki, COP29-a hazırlıqla bağlı FHN tərəfindən işlərin böyük hissəsi yerinə yetirilib.

**AZƏRTAC**
**2024, 28 oktyabr**